**Azərbaycan Respublikası Prezidenti yanında Məhkəmə Hüquq şurası ilə Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun «Azərbaycan Respublikası hakimlərinin Əxlaq Kodeksinin təstiq edilməsinə dair» birgə**

# Q Ə R A R I

**12 dekabr 2002-ci il** **Bakı şəhəri**

Cəmiyyət dövlət hakimiyyətinin tərkib hisəssi olan məhkəmə hakimiyyətinin müstəqil, sərbəst, ədalətlə, qərəzsiz faktlara əsasən və qanunlara müvafiq həyata keçirilməsində maraqlıdır.

Azərbaycan Respublikasının Konstitusiyası məhkəmə hakimiyyətini öz səlahiyyətləri çərçivəsində müstəqil elan etmiş və ədalət mühakiməsinin hakimlərin öz iradəsini ifadə etmək azadlığına təsiri istisna edən şəraitdə həyata keçirilməsini təmin edən möhkəm hüququ zəmin yaratmışdır.

Belə bir şəraitdə ədalət mühakiməsinin məhkəmə hakimiyyətinin yüksək statusuna uyğun həyata keçirilməsi və cəmiyyətdə məhkəmənin əsil həqiqətdə müstəqil olduğuna inamın gerçəkləşdirilməsi məsələlərində əsas vəzifə bu hakimiyyətin daşıyıcıları olan hakimlərin üzərinə düşür.

Məhkəmənin nüfuzu hakimlərin şərəf, ləyaqətindən, onların əxlaqi keyfiyyətlərindən, cəmiyyət arasında hörmətindən, xidməti vəzifələrini yerinə yetirərkən yüksək peşəkarlıq göstərməsindən, məişətdə davranışından və mədəniyyətindən birbaşa asılıdır.

Hakimlər ədalət mühakiməsinin həyata keçirilməsi sahəsində üzərlərinə düşən vəzifənin yüksək məsuliyyətini dərk etməli, qanunlara və insan hüquqlarına hörmətlə yanaşmalı, cəmiyyətdə qəbul edilmiş ümumi əxlaq normaları və davranış

qaydalarını gözləməli məhkəmə hakimiyyətinin şərəfini qorumalıdırlar.

Bu məqsədlərə nail olmaq üçün Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumu və Azərbaycan Respublikası Prezidenti yanında məhkəmə hüquq şurası

## QƏRARA ALIR:

Azərbaycan Respublikası hakimlərinin Əxlaq Kodeksi təsdiq edilsin.

**Məhkəmə hüquq şurasının**
**Sədri:**

**Ali Məhkəmənin Sədri:**